# AĞRINI YAŞADAN HƏYƏCANLAR

*(Əvvəli ötən saylarımızda)*

## "TALEYİN ACI ÜZÜ"

Rənglər qətiyyən olduğundan - tünd çəkilməmişdi. Həmin günün rəngi elə tünd idi. Qırmızının və qaranın fonunda: "Qızımın əlindən tutub küçələri bir-bir ötəndə, dəhşət məni almışdı. İlahi, bu Bakıdımı? Allah, mən Bakının küçələrindəmi gəzirdim? Yollar boyu telefon köşkləri qırıq-sökük. Binaların divarları, balkonların yan-yörəsi dəlmə-deşik, küçələrdə qan izləri. Acılı, küskün, ağlar təbiətin havasında yellənən qara bayraqlar. Həmişə adam əlindən tərpənmək mümkün olmayan dəmiryol ətrafı, 28 aprel metrosunun yan-yörəsi ölüb-getmişdi..." Yazıçı təsvirində bu mənzərə sanki "Pompeyin məhvi"ni xatırladır. Klassik rəssam təbiətin əli ilə yaranmış kataklizmin dəhşətlərini, insan üzündəki cizgilərlə verir. Yazıçı isə doğma şəhərinin dəhşətlərini əsərinin qəhrəmanı ana obrazının mənəvi mühitindən keçirir, onun düşüncələri ilə təqdim edir. Ana-bala ölüm dəhşətləri ilə çırpınan Bakının küçələrindən keçir. Axır ki, rəmzi olaraq bir ünvana çatırlar və elə çatan kimi də hadisələrin fonunu göstərən suallarla qarşılaşırlar. Suallar onların yenidən geriyə qaydışını tələb edirdi. Bayaqkı mənzərə qayıdış zamanı daha təfərrüatlı dərəcədə yaddaşa yazılır. Bir həqiqət indi ona çılpaqlığı ilə aydın olur. Ətrafında çovuyan güllələrə özü də, yanındakı qızı da nişan ola bilərdi, bu Bakının ayın iyirmi birində yaşadığı mənzərəsi idi. Əsərin qalan hissəsi uşaqların psixoloji durumunun şərhinə, Bakının mənəvi mühitindəki ağrını böyük matəm, kədər hissi ilə yaşamasının təsvirinə, əsərin qəhrəmanının ağrılı, acılı təəssüratlarına həsr edilib.

Ailənin və Bakının ağır durumu, həm də Vətənin və xalqın çıxılmazlıqda çıxış yolunu göstərə bilən böyüyün, başçının, güclünün yoxluğu ilə bağlı idi. Əsər ayrı-ayrı məqamlarda bu amili işarələyir. Ancaq hadisələrdən bir neçə gün sonra, ailə başçısının Qarabağdan gəlişini də müəllif maraqlı rəmzlərlə ümumiləşdirə bilir: "O məlum hadisədən bir neçə gün sonra Vaqif Ağdamdan gəlib çıxdı. Özü də qəfildən, heç gözləmədiyimiz bir vaxtda. Ana-bala üçümüz də yerimizdəcə donub qaldıq. Vaqifin çiyinləri elə bil əyilmişdi. Üzü tüklü, gözləri matəmli, dodaqları sərtiydi. Qapının arasında dayanıb eləcə də bizə baxırdı. Biz divanın ortasında oturub bir-birimizə qısılmışdıq. Beləcə, nə qədər ötdü, bilmədim. Vaqif qəmli-qəmli bizə baxırdı. Yox, təkcə baxmırdı. Bu zaman onun dodaqlarında sərt bir ifadə titrədiyini gördük". Bu kiçik təsvirdə atanın övladlarına, ailəsinə qovuşma məqamında bütün Azərbaycanın xəritəsini görürük. Yəni Vətənin hər bir tərəfində yaşanan, acınacaqlı vəziyyət... hər halda ailənin bir yerə toplanması gələcəyə ümid oyadır. Hamı bir yerdə olanda, insan toparlana bilir, özünü səfərbər edir. Belə vəziyyətdə axın kimi insanın üzərinə yeriyən ağır kədərə və dərdə də qalib gəlmək çətin olmur.

Əsər balaca oxucuya müraciətlə sona çatır: "Balaca oxucum! Yolun düşəndə, sən də bir cüt qərənfillə şəhidlərin uyuduğu xiyabanı ziyarətə get. Fəda olanların adlarını oxu, şəkillərinə bax. Qoy ürəyin göynəsin, hıçqırıq səni boğsun, ölənlərin hamısına rəhmət de. Görəcəksən, qəbirlərin üstünə səpələnən qərənfillər də ağlayacaq, ağlayacaq, gül yanaqları solacaq. Onlar da özlərini qəbirlərin üstə şəhid edəcəklər". Beləliklə, "Balaca oxucu" ünvanı əsərin sonluğunda böyük gələcək kimi qavranılır. Bu, yaddaş abidəsi önündəki düşüncələrdir. Zaman-zaman unudulmayacaq, yaddaşa gətiriləcək düşüncələr.

Şəfəq Nasirin zaman haqqında real cizgilərlə təsəvvür yaratmaq imkanı, onun sözlə davranmaq imkanına düz mütənasibdir. O, yeri gələndə həyatın təzadlarını xeyir və şərin qarşılaşma məqamlarını sözünün bətninə yığdığı enerji ilə üzə çıxara bilir.

20 Yanvar Azərbaycan xalqının tarixi taleyində nəsillərin azadlığa can atmaq, azadlığa qovuşmaq uğrunda istəklərini zaman-zaman yaşatmaq gücündə olan əsərdir. Müəllif isə bu əsəri yalnız sözlə ifadə etmək, yazıya almaq missiyasını yerinə yetirir.

## AĞRIDAN ÜZÜ BƏRİ

Şəfəq Nasir 20 Yanvar hadisələrinin içindən keçib. Həm zaman baxımından, yəni həmin dövrdə Bakıda olub, hadisələri müşahidə edib, görüb, baş verənlərin səbəb və mahiyyətini anlamağa çalışıb. Ona görə ki, o, özü də bir yazıçı kimi, tənqidçi-publisist kimi bu hadisələrə seyirçi qala bilməzdi. İkinci bir tərəfi də qeyd etmək yerinə düşər ki, təbiət etibarilə qaynarlığından irəli gələn bir hiss ilə, qarşısıalınmaz bir duyğu ilə yaşadığı şəhərin qarşılaşdığı fəlakəti görmək, əgər belə demək mümkünsə, hadisələrin içindən yeriyərək öz şəhərinə həyan olmaq, onun dərdini bölüşmək istəyilə, ən müxtəlif bəhanələrlə Bakı şəhərini dolaşıb. Bu proses zaman baxımından bir ildən də çox davam edib, yəni hadisələrin başlandığı zamandan həmin hadisələrin bir ili tamam olana qədər Bakının yaralı daşı-divarı, güllələnmiş ağacları, şəhid məzarları, yaralı insanları həmin dövrün psixoloji travmasını yaşamış hər kəslə, hər şeylə maraqlanıb, insanı insan dilində danışdırıb, ağacın ağac dilində dilləşib. Güllə dəymiş gövdəsini əli ilə sığallayıb. Divarlarda izi qalmış güllə yerlərinə baxıb həmin günün hadisələrini təkrar-təkrar varlığında yaşayıb. Əgər belə demək mümkünsə, o, özü də həmin günün dəhşətlərindən psixoloji travma almış Bakı sakinlərindən biri idi. Onu heç nə ovundurmurdu. Yalnız qələm, yalnız kağız və bir də varlığına yığılıb, ağrıya çevrilmiş söz. "Taleyin acı üzü"nü də, "Şəhid Bakı, şahid Bakı"nı da, "Yiyəsiz palto"nu da... və digər ağrı dolu esseləri də publisistik hekayə, povestləri də yazdıran bu duyğular idi.

Bir anlığa belə düşünək ki, həmin dövrün şahidləri gördüklərini yazmayıblar, yazıya gətirməyiblər. göründə insanın az qala gözünü çevirən mənzərələri fotoqraflar fotoya köçürməyiblər. Dövrün məhdud imkanları daxilində, hadisənin görünən tərəfləri videolentlərin yaddaşına yığılmayıb. Onda sonrakı mərhələdə hadisəni, tarixi və siyasi aspektdən necə dəyərləndirmək olardı. Bu mənada Şəfəq kimi yazıçı-publisistlərin qələm sahiblərinin yazdıqları nə qədər atüstü, nə qədər qısaca xronikal xarakter daşısa da əvəzsiz dəyərə malikdir. Bu gün 20 Yanvar hadisələrinin gənc nəslə aşılanmasında əsas dərslik kimi həmin dövrün yazıları öyrənilir. Təkzibolunmaz mənbə kimi istinada çevrilir. İndi Şəfəq Nasirin növbəti bir yazısını - "Şəhid Bakı, şahid Bakı" qeydlərini nəzərdən keçirirəm. Doğrudur, müəllif bu əsəri hadisənin bir illiyində qələmə alıb. Amma hiss olunur ki, müəllif hələ də özünün aldığı psixoloji travmadan, dəhşətli hadisənin yaratdığı stresdən xilas olmayıb. Müəllif bu yazısında da qələm adamından əvvəl özünün vətəndaş missiyasını yerinə yetirməli olduğunu anlayır. O, öz paytaxtı üçün, öz xalqı üçün vətəndaşlıq ağrısını sözlə ifadə etməklə vətəni və xalqı qarşısında borcunu verməyə çalışır. Publisistik hekayətin giriş hissəsində həmin gün gördüklərini ümumi şəkildə xarakterizə edir. Hətta, həmin hadisələr zamanı cəmiyyətin içindəki




vahimə və qorxu ilə təbiətin kədərdolu görünüşünü uzlaşdırır. Gecənin tutqunluğu həmin günlərin yalquzaq kimi dil çalan külәkləri buludların vurnuxması... bütün bunlar həmin dövrün mahiyyətini açmaq üçün köməkçi obrazlardır, yardımçı qüvvələrdir. Əlbəttə, yazıçının istedadından asılıdır ki, o, təbiət hadisələri ilə, cəmiyyət hadisələrini necə uzlaşdıra bilir. Bir ildən sonra yazıçı aləmində qurduğu mühakimə prosesinə həmin dövrün bütün izlərini və insanlarını şahid kimi mühakimə prosesinə cəlb edir. Özü demiş, onsuz da şahidlər dilə gəlir. Özləri hadisə haqqında sanki qanı qurumayan yara kimi söz açırlar. Müəllif ritorik suallarla mühakimə prosesini bütün psixoloji gərginliyi ilə yazıda əks etdirməyə çalışır: "Əslində, o, şahidləri dindirib-danışdırmasan da özözlərinə, ürəklərində həmişə danışırlar. Hər kəs daxilində bu faciəni götür-qoy eləyir. Fikir-düşüncə ürəkləri didib-parçalayır, hamının da ittihamı bir olur: Axı bizim qanımızı niyə tökdülər? Niyə körpələri başsız qoydular? Niyə? Niyə?.." Bu ritorik suallar müəllifin yaratdığı mühakimə prosesində onun hissləri və həyəcanları ilə qanadlanır. Hər kəsi və hər şeyi danışdırmaq üçün sözə çevrilir. O sözə ki, onun səsini müəllif yaxşı eşidir. Arada hadisələrin hər an təkrar ola biləcək variantını da unutmur. Gördüklərinin timsalında böyük siyasi arenanın nə qədər qəddar, nə qədər amansız olduğunu da yaddan çıxarmır və oxucusunun diqqətinə çəkir: "O yanvardan üzü bu yana bir şeyi müşahidə eləmişəm; kimi dindirirsən, kimə o gecədə başına gələnləri söylədirsən, hamısı da o günlərin ab-havasını, topunu-tüfəngini, qan qoxulu gecələrini, səhərlərini söhbətlərində elə canlandırır, elə odlu-odlu, yana-yana deyir ki, sanırsan təzədən o qara-qorxulu müharibənin içindəyik. Sanırsan, o günlər təzədən baş verir". Bu hisslər, bu duyğular həmin dövrün bütün şahidlərində yəqin ki, ömürləri boyu davam edəcək, heç vaxt unudulmayacaq. Ancaq bu hisləri, bu duyğuları o asan yaşamır, ağrı ilə yaşayır hətta bu ağrıların altında qeyri-adi duyğularla inləyir də: "Allah, bütün bunlar necə əzablıdı..." Şəfəq Nasirin yazısının dəyəri ondadır ki, o, hadisənin - layiq olduğu hadisənin real mənzərəsini göstərə biləcək həyəcan müstəvisinə çıxara bilir. Çünki o, yazı məsuliyyətinin nə demək olduğunu yaxşı bilir. Bilir ki, hadisədən otuz il sonra həmin dövrün hadisələrini görməyən nəsil, onun yazdıqlarına əsasən həqiqəti qavrayacaq. Həqiqət isə yalnız dövrün xronikasından ibarət deyil. Həmin dövrün insanlarının yaşadığı amansız dərddir, fəryaddır, köməksizlik faciəsidir, eyni zamanda, tarixi faktdır. Bu hadisəni elə yazmaq lazımdır ki, gələcək nəsillər üçün əbədi həqiqət effekti daşısın. Şəfəq Nasir həmin günün hadisələrini xarakterizə edən çox maraqlı ifadələr işlədir. Bu ifadələrdən biri də həmin günləri xarakterizə edən, obrazlandıran və həm də yazıçının bədii tapıntısı olan "ölümgəzən" ifadəsidir. Yazıçı "Ölümgəzən" obrazını elə yerində işlədib ki, otuz ildən sonra biz həmin ifadəni yaradan mühitin izinə düşə bilirik: "Bütün bunları görəndə bir həqiqətə inanırsan ki, ölümgəzən həmən o günlərdə ölənlərdən savayı nə qədər oğullarımız o dərdləri ürəyində daşıya bilmədi. Əsəb, fəlakətin ağrısı neçələrini iflic elədi, neçələrini də işıqlı dünyadan ayırdı..." Maraqlıdır ki, bu yazıda müəllif həmin günlərdə həlak olmuş insanlardan danışmır. Daha çox diqqəti, yazıçı obyektivini psixoloji travma almış insanların üzərinə yönəldir. O insanların ki, həmin gecəni həyatlarının bir parçası kimi yaşayıblar, ancaq unudulmaz bir parçası kimi yaşayıblar. Məlumdur ki, hər kəs öz dövründə saysız hadisələrin şahidi olur, ancaq insan yaşlaşdıqca, bu hadisələr yaddaşdan süzülüb gedir. Hətta elə ağrılı hadisələr var ki, zamanın hökmü ilə daşıdığı ağrı ilə birlikdə yaddaşdan yox olur. Amma Şəfəq Nasir başa düşür ki, 20 Yanvar hadisələrinin şahidi olan insanlar bir gün dünyada olmayacaqlar. Bax, o zaman bu ağrı tarixin arxivinə yığılacaq, tədqiqatçı obyekti olacaq. Şəfəq Nasir bir sənətkar kimi, məhz həmin dövrdə yazılanların təkzibolunmaz sənəd olmasına cəhd göstərir.

Şəfəq Nasir üçün həmin dövrün şəhidliyi ilə həmin dövrün şahidliyini birləşdirən məqamlar var. Məhz sənətkarın böyüklüyü orasındadır ki, həmin məqamları müşahidə edə bilir, həmin məqamlara ictimai məzmun verə bilir.

***25.02.2020***